# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin üçüncü hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində koronovirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronovirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin dövründə (2020-ci il 31 mart - 20 aprel) ölkə ərazisində aşağıdakı xüsusi iş (əmək) rejimi tətbiq edilsin:

1.1. “Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin dövründə rəhbərləri və zəruri halda işçiləri işə cəlb edilən dövlət orqanlarının və qurumlarının Siyahısı” bu Qərarın 1 nömrəli əlavəsinə uyğun olaraq müəyyən edilsin;

1.2. bu Qərarın 1 nömrəli əlavəsində nəzərdə tutulan dövlət orqanlarının və qurumlarının rəhbərləri strukturlarının fəaliyyətini təmin etmək üçün məhdud sayda işçiləri işə cəlb etsinlər və cəlb etdikləri günlər üçün il ərzində onlara əlavə istirahət günləri versinlər;

1.3. dövlət orqanlarında və qurumlarında işə cəlb edilməyən işçilərin əmək haqqı saxlanılsın;

1.4. bu Qərarın 2 nömrəli əlavəsində müəyyən edilmiş fəaliyyətinə icazə verilən sahələrdən başqa, digər sahələrdə işə cəlb edilməyən işçilərin əmək haqlarının saxlanılması işəgötürənlərə ciddi tövsiyə edilsin;

1.5. imkan oduqda işə cəlb edilməyən işçilərin öz evində, habelə distant (məsafədən) iş və ya teleiş formasında işləmələri təmin edilsin;

1.6. xüsusi iş (əmək) rejiminin tətbiq edilməsi ilə əlaqədar 2020-ci ilin istehsalat təqvimi və iş vaxtı norması dəyişdirilmir.

2. "Azərbaycan Respublikasının ərazisində xüsusi əmək rejimi olaraq qeyri-iş günlərinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 113 nömrəli Qərarı ləğv edilsin.

3. Bu Qərar 2020-ci il 31 mart tarixindən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 31 mart 2020-ci il

№ 122

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 31 mart
tarixli 122 nömrəli Qərarına
**1 nömrəli əlavə**

## Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin dövründə rəhbərləri və zəruri halda işçiləri işə cəlb edilən dövlət orqanlarının və qurumlarının Siyahısı

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı
3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (o cümlədən, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlikləri)
5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
6. Azərbaycan Respublikasının Baş Prokurorluğu
7. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
8. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi
9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
10. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
11. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
12. Azərbaycan Respublikasının Təhsil Nazirliyi
13. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
14. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
15. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
16. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi
17. Azərbaycan Respublikasının Energetika Nazirliyi
18. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
19. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
20. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
21. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
22. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi
23. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
24. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

25. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
26. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
27. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi
28. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti
29. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti
30. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti
31. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
32. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti
33. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
34. Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB), dövlət və özəl səhiyyə müəssisələri
35. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
36. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
37. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi
38. Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi
39. Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi
40. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAc)
41. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik
42. Azərbaycan Respublikasının Mərkəzi Bankı, dövlətə məxsus banklar
43. Azərbaycan Respublikasının Dövlət Neft Fondu
44. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR)
45. Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyəti orqanları
46. “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
47. Azərbaycan Respublikasının Dənizkənarı Bulvar İdarəsi
48. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi
49. Azərbaycan Respublikasının Hesablama Palatası
50. “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti
51. “Azərsu” Açıq Səhmdar Cəmiyyəti
52. “Azəriqaz” İstehsalat Birliyi
53. “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti
54. “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti

55. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti
56. “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti
57. “Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı
58. “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti
59. “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti
60. “Azərkontrakt” Səhmdar Cəmiyyəti
61. “Azəraqrartikinti” Səhmdar Cəmiyyəti
62. Bakı Nəqliyyat Agentliyi
63. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti
64. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti
65. “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti
66. “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti
67. “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti
68. Azərbaycan Respublikasının Əmanətlərin Sığortalanması Fondu
69. Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu
70. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu
71. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi
72. “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi.

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 31 mart
tarixli 122 nömrəli Qərarına
**2 nömrəli əlavə**

# Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qeyri-iş günlərində işlərin davam etdirilməsi zəruri olan fəaliyyət sahələrinin Siyahısı

**1. Səhiyyə və sosial sahə üzrə:**
1.1. elmi-tədqiqat və laborator xidmətləri;
1.2. xəstəxanalar, poliklinikalar və digər tibb müəssisələri üzrə xidmətlər;
1.3. baytarlıq xidmətləri;
1.4. tibbi avadanlıqların, dərmanların və tibbi vasitələrin istehsalı;
1.5. sosial xidmətlər;
1.6. əqli qüsurlu və xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti.
**2. İnfrastruktur sahəsi üzrə:**
2.1. kommunal xidmətlər (kanalizasiya və su təchizatı, qaz təchizatı, istilik təchizatı, enerji paylanması);
2.2. elektrik enerjisinin istehsalı və təchizatı;
2.3. su təchizatı və meliorasiya;
2.4. telekommunikasiya və rabitə xidmətləri.
**3. Nəqliyyat və logistika sahəsi üzrə:**
3.1. hava, dəniz, dəmir yolu və avtomobil nəqliyyatı ilə yük daşımaları;
3.2. dəmir yolu, dəniz gəmiçiliyi, liman və avtomobil yolları xidmətləri;
3.3. logistika xidmətləri;
3.4. ictimai nəqliyyat və taksi xidmətləri.
**4. Əsas istehsalat növləri:**
4.1. müdafiə sənayesi məhsullarının istehsalı;
4.2. neft avadanlıqları və qurğularının istehsalı;
4.3. qida məhsullarının və onlar üçün xammal istehsalı, qida məhsullarının tədarükü, təchizatı, saxlanması və topdan satışı;
4.4. gündəlik baxım və gigiyena vasitələrinin istehsalı;
4.5. kimyəvi məhsulların istehsalı;
4.6. kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, o cümlədən fermer təsərrüfatlarının fəaliyyəti;

4.7. əkinçilik və məhsul yığımı;
4.8. neft və qazın hasilatı, emalı, saxlanması və satışı;
4.9. neft və qazın boru kəmərləri vasitəsi ilə ötürülməsi;
4.10. metallurgiya sənayesi üzrə fəaliyyət;
4.11. tikinti və məişət avadanlıqlarının istehsalı və təmiri;
4.12. mühəndislik və layihələndirmə xidmətləri;
4.13. mülki və sənaye təyinatlı bina və qurğuların, yolların tikintisi və təmiri;
4.14. qablaşdırma məhsullarının istehsalı;
4.15. daş, metal və taxta məhsullarının istehsalı;
4.16. mebel istehsalı və təmiri;
4.17. diri heyvanların kəsimi.
**5. Pərakəndə və topdan satış üzrə:**
5.1. ərzaq məhsullarının satış məntəqələri;
5.2. apteklər;
5.3. yanacaqdoldurma məntəqələri;
5.4. zoomağazalar, o cümlədən heyvanlar üçün yem satışı məntəqələri;
5.5. tikinti materiallarının və məişət xırdavatlarının satışı məntəqələri.
**6. Məişət xidmətləri üzrə:**
6.1. məişət tullantılarının yığılması və utilizasiyası;
6.2. poçt xidmətləri;
6.3. kimyəvi təmizləmə;
6.4. mənzillər istisna olmaqla, yaşayış binalarının təmizlənməsi;
6.5. avtomobillərin təmiri;
6.6. avtomobil yuyulma məntəqələri;
6.7. tərcümə xidmətləri;
6.8. heyvan sığınacaqları;
6.9. dizayn xidmətləri.
**7. Kütləvi informasiya vasitələri.**
**8. Maliyyə təşkilatları üzrə:**
8.1. banklar və bank olmayan kredit təşkilatları;
8.2. investisiya şirkətləri, fond birjaları;
8.3. sığorta təşkilatları;
8.4. ödəniş xidmətləri və kliring xidmətləri göstərən təşkilatlar.
**9. Xüsusi xidmət növləri üzrə:**
9.1. çatdırılma xidmətləri;
9.2. məişət avadanlıqlarının təmiri;
9.3. dezinfeksiya xidmətləri.
**10. Vəkillik fəaliyyəti.**